AYDAN ARAZQIZI

# SUSARAQ SEÇİLƏN CƏZA

QANUN NƏŞRİYYATI

Bu hekayə yalnız bir ailənin faciəsi deyil, susdurulan həqiqətlərin və gecikən ədalətin hekayəsidir. Uşaqlıqda itirilən ana, susan ata və parçalanan bir taleyin kölgəsində böyüyən Fərhad üçün həyat heç vaxt sadə olmadı. O, illər keçsə də, bu günahın həqiqət olduğuna inanmaq istəmir. Həqiqəti tapmaq arzusu onu qanunun sərt yollarına aparır və vəkil olur. Fərhad üçün keçmiş sadəcə xatirə deyil – hər gün yenidən açılan bir yaradır. Sirlər bir-bir açıldıqca həqiqət daha da qorxulu görünür. Sevgi belə bu mübarizənin içində bəzən sınağa çevrilir.

Və ən əsası, Fərhadın atası doğrudanmı qatildir, yoxsa həqiqət illərdir yanlış bir günahın kölgəsində gizlənir?

✧✧✧

Sıradan günlərdən biri idi. Fərhad hər zamankı kimi fikir dəryasında boğulmamaq üçün çabalayırdı. Düşüncələrinə o qədər bağlanmışdı ki, ürəyinin sürətlə döyündüyünün belə fərqində deyildi. Səhər qaçışını qəfil dayandırıb iki əlini dizlərinə qoydu. Bu hərəkətlə beli doxsan dərəcə büküldü. Qolundakı saatın titrədiyini hiss etdi. Əlini ürəyinə apardı, gözlərini yumdu. Dərindən nəfəs alıb-verməyə başladı. Bir qədər sonra özünə gəlməyi bacardı. Saatına baxdı. İdmandan qayıtmalı olduğu vaxtın üzərindən on dəqiqə keçmişdi. İri addımlarla dəniz kənarına yaxın olan evinə doğru yönəldi. Səhər yeməyi etmədən üstünü dəyişdirib evdən çıxdı. Tələsdiyindən ayaqqabısının bağlarını bağlamağı belə unutmuşdu.

Bu gün onun çox vacib bir məhkəməsi var idi. Tələsik halda özünü məhkəmə salonuna çatdırdı. Tam vaxtında gəlmişdi. Saatlarla davam edən məhkəmənin sonunda Fərhad, həmişə olduğu kimi, bu dəfə də müvəkkilini haqlı çıxarmağı bacardı. Ağır addımlarla otağına keçdi. Əlini yumruq halına gətirib gözlərini ovdu. Yenə də yuxusuzluqdan gözləri qızarmışdı. Lakin onu tez-tez bu halda – yorğun və gözləri şişmiş görən kənar şəxslər üçün bu artıq onun adi vəziyyəti sayılırdı. Vaxt itirmədən yenə beynini məşğul edən məsələ barədə düşünməyə başladı.

Gecə-gündüz boş vaxt tapan kimi yalnız bu haqda fikirləşirdi. Nahara belə çıxmırdı. Beynində yaranan suallar onu getdikcə daha dərindən düşünməyə vadar edirdi. Onun ağlından bu suallar keçirdi:

"Bu hadisə necə baş vermişdi?"

"Görəsən, qatil o idimi?"

"Axı sevdiyi qadına belə bir şeyi necə edə bilərdi?"

Bu an qapı döyüldü. Fərhad fikirlərinə ara verib:

– Buyurun, – dedi.

İçəri məhkəmə sədri Səməd bəy daxil oldu. Fərhad dərhal ayağa qalxdı.

– Əyləş, Fərhad. Çox vaxtım yoxdur. Səninlə bir məsələ haqqında danışacam.

– Buyurun.

– İstəyirəm üstündə iş gedən, amma məhkəmə qərarı açıqlansa da, cavabı bizi qane etməyən bir cinayət işini sənə təhvil verim. Çünki bu qərar müvəkkili razı salmır. Dəfələrlə gəlib narazılıq edib. Düzünü desəm, bəzi məqamlar mənə də qaranlıq qalıb. Əminəm ki, sən bu qaranlıq nöqtələri üzə çıxaracaqsan.

– Bilirsiniz, sizin xətrinizi çox istəyirəm. Hər çətin vəziyyətimdə yanımda olmusunuz. Amma üzrlü sayın, bu dəfə üstələnə bilməyəcəyəm. Həll etməli olduğum və mənim üçün daha önəmli bir məsələ var.

– Oğul, demək olar ki, sən burada işə başlayandan bu məsələ üzərində çalışırsan. Bu işə illərini vermisən. Demirəm ki, öz məsələnlə məşğul olub işini kənara atmısan. Əksinə, sən həm öz problemini, həm də işini eyni vaxtda idarə edirsən və bunun öhdəsindən də layiqincə gəlirsən.

Açdığın işlərin, qazandığın məhkəmələrin sayı-hesabı yoxdur. Amma səndən çox xahiş edirəm, işi öz üzərinə götürməsən belə, bu məsələyə yeni gələn bir vəkil baxacaq. Bu onun ilk işidir. Bir az kömək edər, yönləndirərsən.

Fərhad fikirli halda əlini saçlarına çəkdi. Səməd bəyin onunla bağlı dedikləri içindəki "Bunu da həll edə bilərəm" düşüncəsini cəsarətləndirirdi. Amma bir yandan da yaşananlara güclə tab gətirən qəlbini ümidsizlik bürüyürdü.

– Bəli, düz deyirsiniz. Bu gənc yaşımda nailiyyətlərimin sayı az deyil. Amma bir bu məsələnin öhdəsindən gələ bilmirəm.

– Fərhad, mən bilirəm ki, sən bu işin üstünü açmadan əl çəkməyəcəksən.

– Təbii ki, sözsüz.

– Bəs mənim təklifimə nə deyirsən?

– İndiyə qədər sizin sözünüzü yerə salmamışam. Baş üstə. Nə zaman desəniz, canla-başla hazıram.

Səməd bəy gülümsəyib otaqdan çıxdı. Fərhad gün boyu işləməyə davam etdi. Hətta günorta yeməyi belə yadına düşmədi. Amma o unutsa da, onu unutmayan əmisi, oğlu Fəriddən ona isti ev yeməkləri göndərmişdi.

***

Fərhad Əmirxanlı iyirmi səkkiz yaşında, işini mükəmməl bilən bir vəkil idi. Dilbər adlı bir bacısı vardı. O, bu il həkimlik üzrə ali təhsilini başa vurdu. Anası Aybəniz on altı il əvvəl həyat yoldaşı Rüstəm Əmirxanlı tərəfindən qətlə yetirilmişdi. O vaxt Fərhad on iki, Dilbər isə yeddi yaşında idi.

Fərhadın atası tutulana qədər güclü, tanınmış bir müstəntiq idi. Artıq on altı ildir ki, həbsdə idi. Bir zamanlar başqasının həbsə atılmasına səbəb olan tanınmış müstəntiq atıq özü ədalətin dəmir barmaqlıqları arxasına məhkum olmuşdu. Fərhad nə özü atasının görüşünə gedərdi, nə də Dilbərə icazə verərdi. Hələ də atasının bu cinayəti necə törətdiyinə inanmaqda çətinlik çəkirdi. Üstəlik, atası bunu etiraf etmiş və on bir il azadlıqdan məhrum edilmişdi.

Digər cəzasını isə həbsdə olarkən haqsızlığı qəbul edə bilməyib, bir gənci müdafiə edərkən yaşanmışdı. Burada da cəzası beş il uzadılmışdı.

Elə həmin dövrdən etibarən, bir vaxtlar kitaba belə marağı olmayan Fərhad hüquq oxumaq qərarı verdi. O, hüququ atasının istəyi ilə yox, ədalətsizliyə boyun əymədiyi üçün seçdi. Universitet illərində də hüquqla yaxından maraqlanırdı. Auditoriyalarda oturduğu günlərdə belə, o artıq hüququ yalnız kitab səhifələrində axtarmırdı. Təcrübəli vəkillərin kabinetlərində səssizcə kənarda dayanır, danışılan hər sözü, verilən hər qərarı yaddaşına həkk edirdi. Hələ tələbə ikən bu peşənin ağırlığını çiyinlərində hiss etməyi öyrənmişdi.

Universiteti bitirdikdən sonra bacısı ilə birlikdə yaşayacağı bir evə köçdü. O vaxta qədər onlara əmisi Rza Əmirxanlı baxmışdı. İşə başladıqdan sonra isə Fərhad qətlin törədildiyi evdə yenidən baxış keçirilməsi üçün əlindən gələni etdi. Elə ən yaxın dostu Arif Aslanovla da burada tanış olmuşdu. Arif çox güclü müstəntiq idi və onlar bir çox işi birlikdə həll edirdilər.

***

Fərhad evə qayıdanda Dilbər divanda kitab oxuyarkən yuxuya getmişdi.

Fərhad astaca bacısını səslədi:

– Dilbər, qalx, yerində yat. Sonra boynun ağrıyacaq.

Dilbər gözlərini güclə açdı.

– Fərhad, nə vaxt gəldin? Qapının səsini eşitmədim. Acsan?

– Açarım var idi. Ac deyiləm, əmim sağ olsun, yemək göndərmişdi.

Səhər saat altıda zəngin səsinə oyandı. Bu gün yazın yayı əvəz etdiyi bir gün idi. Günəşin şüaları bütün otağı aydınlandırırdı. O, hər zamankı kimi qaçışa çıxdı. Qayıdanda Dilbərlə birlikdə səhər yeməyi etdilər. Sonrada rəsmi geyimlərindən birini geyinib evdən çıxdı.

Fikirləri yenə də qarışıq idi. Fərhad özü də fərqinə varmadan doxsanlıq yolda yüz əlli sürətlə hərəkət edirdi. Qarşısındakı qırmızı rəngli maşın ani olaraq saxladı. O da əyləci sıxsa da, maşını vaxtında dayandıra bilmədi və qarşıdakı avtomobilə toxundu. Maşından qumralsaçlı, qaragözlü, təxminən bir altmış boyunda, çox zərif bir xanım düşdü. Hadisənin şokundan titrəyən əlini qorxudan döyünən ürəyinə apardı. Avtomobilinə baxdı və ən azından özünə zərər dəymədiyinə görə şükür etdi. Ardınca isə Fərhadın maşından düşüb üzr istəməsini və dəymiş zərəri ödəməsini gözləyərək əsəbi halda ona baxdı. Amma Fərhad artıq işə gecikirdi. O, intizamlı biri olduğu üçün gecikməyi sevmirdi. Maşını kənara çəkib xanımdan

üzr istəmədən yoluna davam etdi. Xanım isə arxasınca qışqıraraq:

– Səni polisə şikayət edəcəyəm! Bu yanına qalmayacaq! – dedi.

***

Fərhad saat səkkizdəki məhkəməsini uğurla başa vurub otağına keçdi. Mənzərəsi çox gözəl olan pəncərəsinin önündə dayanıb dənizi seyr etdi. Dəniz onun fikirlərini dağıdan, ruhunu dincəldən yeganə sığınacaq idi.

Arif qapını döymədən içəri girdi.

– Yenə nə olub, qaş-qabağını tökmüsən?

Fərhad üzünü ona çevirib başına gələnləri danışdı.

– Eh.. Yolda fikirli idim. Sürəti hiss etmədən artırmışam, birinin maşınını vurdum. Gərək düzəltdirim.

– Nə yaxşı polisə şikayət etməyib?

– Etmiş olar, böyük ehtimal, polisləri bura Ayaz göndərməyib. O göndərməmiş mən maşını düzəltdirsəm, yaxşı olar.

– Qardaş, hardan biləcəksən hansı maşın idi? İstəsən, kameralardan baxdırım.

Fərhad telefonunu açıb kimisə yığdı. Yığdığı şəxsə maşının rəngini və nömrəsini bildirdi, təmir etməsini söylədi.

– Maşın Bakı Dövlət Universitetinin qarşısında olacaq. Ödənişi kartla həll edərik. Oldu, çox sağ olun.

Arif gülməyə başladı.

– Hə, deməli, qırmızı maşın. Yəqin ki, xanımdır. Böyük ehtimal, xanım haqqında bu qədər məlumatı bildiyinə görə, onunla söhbətdə etmisən.